# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


**DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!**

**AZƏRBAYCANIN GƏLƏCƏYİNƏ SƏS VER!**

## 29 saylı Səbail seçki dairəsindən YAP-ın deputatlığa namizədi Aytən Hüseynova Səbail rayon gəncləri ilə görüş keçirib





Yanvarın 22-də parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 29 saylı Səbail seçki dairəsindən Yeni Azərbaycan Partiyasının (YAP) deputatlığa namizədi Aytən Hüseynova Səbail rayon gəncləri ilə görüş keçirib.

Görüşü giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri Şəmsəddin Hacıyev qarşıdan gələn parlament seçkiləri haqqında danışıb, seçkilərin ölkəmizin ictimai-siyasi həyatında mühüm bir hadisə olduğunu qeyd edib. O, eyni zamanda, parlament seçkilərində YAP tərəfindən ən layiqli namizədlərin irəli sürüldüyünü deyib. Bu seçkilərdə YAP namizədləri sırasında qadınların və gənclərin xüsusi çəkisinin yüksək olduğunu diqqətə çatdıran rayon təşkilatının sədri gənclərin məhz YAP tərəfindən irəli sürülmüş namizədləri dəstəkləyəcəklərinə əminliyini vurğulayıb. Bildirib ki, partiyamızın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə mütəşəkkil inkişaf yolu keçən YAP-ın sıralarında hazırda 750 min üzv var. Bu üzvlərin 44 faizini gənclərin təşkil etməsi partiyanın gələcəkdə də mühüm siyasi qüvvə olacağını deməyə əsas verir.

Sonda YAP tərəfindən 29 saylı Səbail seçki dairəsi üzrə namizədliyi irəli sürülmüş Aytən Hüseynovaya uğurlar arzu edib.

Çıxış edən Aytən Hüseynova YAP-ın bu seçkilərdə gənclərə göstərdiyi yüksək etimad haqqında danışaraq partiyanın bu etimadının deputatlığa gənc namizədlər üçün eyni zamanda yüksək məsuliyyət və əvəzolunmaz təcrübə olduğunu qeyd edib.

YAP-ın hər zaman gəncliyin inkişafına dəstək verdiyini deyən Aytən Hüseynova gənc seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.

**MÜŞFİQƏ**

## İtaliya qəzetində Azərbaycan səfirinin erməni yalanlarını ifşa edən cavab məktubu dərc olunub

Yanvarın 17-də İtaliyanın tanınmış "La Verita" qəzetində jurnalist Gianluca De Maionun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, xüsusilə Qanlı 20 Yanvar hadisələri ilə bağlı erməni tərəfinin mövqeyini əks etdirən, ölkəmizə qarşı qərəzli və yalan məlumatların yer aldığı "Ermənilərin Azərbaycan tərəfindən gizlədilən qətliamı" adlı məqaləsi dərc edilib.



LaVerità

SEZIONI · GUARDACI & ASCOLTACI · DI PIÙ · ABBONAMENTI · SFOGLIATORE · ECOMMERCE · CONTATTI

Le balle di Conte sulla Gregoretti
Maurizio Belpietro 22 gennaio

I potenti del mondo accolgono Greta che fa lo spot ai loro affari «green»
Francesco Borgonovo 22 gennaio

Barceló
+230 ОТЕЛЕЙ В +20 СТРАНАХ
barcelo.com

Oggi in edicola

LE BALLE DI CONTE SULLA GREGORETTI

«Non occultate i morti azeri del gennaio nero»

CONTENUTO ESCLUSIVO DIGITALE

Pubblichiamo il testo dell'ambasciatore dell'Azerbaijan in Italia in merito all'articolo della Verità.

PER LEGGERE LA STORIA COMPLETA

Per gli abbonati

©Riproduzione Riservata

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadənin "La Verita" qəzetinin redaksiyasına ünvanladığı cavab məktubu tam şəkildə dərc olunub. Səfirin cavab məktubunda bildirilir: "Mətbuatın italyan oxucularına çox da tanış olmayan tarixi məqamlara diqqət ayırması həmişə maraqlıdır. Ancaq təəssüflə bildiririk ki, cavab hüququndan istifadə etməklə dərc olunmasını xahiş etdiyimiz bu məktubumun səbəbi müəllifin hadisələri dərindən araşdırmadan Azərbaycan üçün faciələrlə dolu bir tarixi dövrü təsvir etməsidir.

Bununla əlaqədar olaraq qeyd etmək istərdik ki, məqalədə müəllifin erməni propaqandasından qaynaqlanan məlumatlarla həqiqətdən uzaq bir şəkildə xatırlatdığı məhz bugünkü 20 Yanvar tarixində Azərbaycan Qara Yanvarın 30-cu ildönümünü anır. Ermənistanın bu propaqandasının məqsədi Ermənistan tərəfindən Azərbaycana qarşı başladılmış, çağdaş tarixdə Azərbaycan xalqına qarşı ən qanlı qırğınlardan biri olan Qara Yanvar hadisələrinin də daxil olduğu faciəli hadisələrə səbəb olan Dağlıq Qarabağ münaqişəsinin köklərini və mahiyyətini gizlətmək və təhrif etməkdir.

Həqiqət budur ki, 1990-cı il yanvarın 19-u gecə Sovet İttifaqının ovaxtkı prezidenti Mixail Qorbaçovun göstərişi ilə sovet ordusunun 30 minə yaxın əsgəri Bakıya doğru irəlilədi. Dəniz də daxil olmaqla, bütün istiqamətlərdən genişmiqyaslı hərbi əməliyyat silahsız sakinləri, istisna edilmədən qadınları, qocaları və körpələri hədəf almağa yönəldilmişdir; hətta təcili tibbi yardım maşınlarının sürücüləri və həkimləri vəhşicəsinə öldürülmüşdür. Zirehli tanklar və hərbi nəqliyyat vasitələri içərisindəki insanlardan asılı olmayaraq mülki və təcili yardım maşınlarını əzdilər. Hücum 147 mülki şəxsin ölümünə, 800-ə yaxın insanın yaralanmasına səbəb oldu.

Qoşunların Bakıya və ölkənin digər şəhərlərinə daxil olmasında əsas məqsəd SSRİ tərəfindən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanın xeyrinə birtərəfli, qərəzli və yolverilməz siyasətə qarşı başlanan dinc nümayişlərin boğulması ilə əhalini susdurmaq idi.

"Human Rights Watch" təşkilatı "Azərbaycanda Qara Yanvar" adlı hesabatında qeyd edir ki, həqiqətən 19-20 Yanvar gecəsində sovet ordusu tərəfindən törədilən zorakılıq azərbaycanlıların göstərdiyi müqavimətə nisbətdə o qədər qeyri-bərabər idi ki, bu, kənardan kollektiv cəza kimi görünürdü.

Qara Yanvar XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı Dağlıq Qarabağın Azərbaycan bölgəsinə ərazi iddiaları və 250 min azərbaycanlının Ermənistandakı tarixi torpaqlarından didərgin salınması ilə başlayan prosesin bir hissəsidir.

Bunun ardınca Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü başladı, bu da Dağlıq Qarabağ və ətraf yeddi rayon daxil olmaqla Azərbaycanın 20 faizinin hərbi işğalına, işğal edilmiş ərazilərdə 750 min nəfər azərbaycanlıya qarşı etnik təmizlənməyə və həmin ərazilərdə Azərbaycanın tarixi abidələrinin dağıdılmasına gətirib çıxardı. Ermənistan beynəlxalq humanitar hüququ ciddi şəkildə pozdu və çoxsaylı müharibə cinayətləri, o cümlədən 1992-ci il fevralın 25-dən 26-na keçən gecə münaqişənin ən faciəvi hadisəsi olan, Ermənistan ordusu tərəfindən 613 azərbaycanlı mülki şəxsin qətlə yetirildiyi Xocalı soyqırımını törətdi.

Müəllif mövzunu araşdırsaydı münaqişə barədə beynəlxalq sənədlər, o cümlədən BMT Təhlükəsizlik Şurasının ərazilərimizdən Ermənistan qoşunlarının çıxarılmasına, azərbaycanlı qaçqın və məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılmasına dair Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən 4 qətnamələr barədə də məlumat əldə edə bilərdi.

Azərbaycan tarixən müxtəlif din və millətlərin sülh və harmoniya içində yaşadığı bir ölkədir və Azərbaycanın multikulturalizm modeli beynəlxalq səviyyədə bir nümunə kimi qiymətləndirilir. Ermənistan istər Ermənistanın özündə, istərsə də Azərbaycanın işğal olunmuş ərazilərində azərbaycanlılara qarşı etnik təmizləmə aparsa da, həmin ərazilərdə Azərbaycana məxsus bütün tarixi və mədəni irsi məhv etsə də, ölkəmizdə on minlərlə erməni mənşəli vətəndaşlar digər vətəndaşlarla eyni hüquqlara malikdir, Bakının mərkəzində dövlətimiz tərəfindən təmir edilmiş erməni kilsəsi mövcuddur və orada 5 mindən çox erməni dilində kitab qorunur.

Qara Yanvar zamanı, habelə Dağlıq Qarabağ münaqişəsi kontekstində baş verən hadisələrin məqalədə verilmiş formada təsviri şəhidlərin xatirəsinə və işğal edilmiş ərazilərdə öz yaxınlarının məzarlarını ziyarət etmək imkanından məhrum olan 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün hisslərinə hörmətsizlikdir.

Bizim məqsədimiz qəzetinizin adında (La Verita' italyanca həqiqət deməkdir) qeyd olunduğu kimi oxuculara həqiqəti çatdırmaqdır".

## Bərdəlilərin seçimi YAP-ın namizədi olacaq

Parlament seçkilərinin təbliğat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən 93 saylı Bərdə şəhər seçki dairəsi üzrə namizədliyi irəli sürülmüş Fatma Yıldırım yanvarın 22-də günün ilk yarısında Mirzəxan, Cumalar, Hacıbəyli, Kafarlı, Köbər, Həsənli kənd seçiciləri ilə, günün ikinci yarısında Bərdə şəhər seçiciləri ilə görüşüb.



DOST mərkəzi fəaliyyətə başlayacaq mərkəzlərin fəaliyyətinin başlıca məqsədi əhaliyə göstərilən sosial xidmətlərin "bir pəncərə" prinsipi əsasında təşikli, vətəndaşlara daha şəffaf, operativ xidmətin təmin edilməsidir. Hazırkı dövrə qədər 65 min vətəndaş mərkəzlərin xidmətindən istifadə edib.

Fatma Yıldırım millət vəkili seçiləcəyi təqdirdə üzərinə düşəcək vəzifələri layiqincə yerinə yetirəcəyini bildirib və seçiciləri 9 fevral tarixində keçiriləcək parlament seçkilərində fəal olmağa çağırıb.





Deputatlığa namizəd Fatma Yıldırım Yeni Azərbaycan Partiyasının seçki platforması və öz fəaliyyəti barəsində məlumat verib. O qeyd edib ki, Yeni Azərbaycan Partiyasının Sədri, Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub. Fatma Yıldırım ölkəmizdə aparılan islahatlardan danışıb, dövlət orqanlarına etimadın daha da gücləndirilməsi, şəffaflığın artırılması istiqamətində həyata keçirilən dövlət siyasətinin uğurlarından söz açaraq ASAN Xidmət, ABAD, DOST layihələrinin aparılan islahatların tərkib hissəsi olduğunu bildirib.

Onun sözlərinə görə, çox sevindirici haldır ki, Bərdə rayonunda da "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Bu günə kimi "ASAN xidmət"-ə edilən müraciətlərin sayı 35 milyondan çox olub ki, bu müraciətlərin də 8.5 milyonu 2019-cu ildə qeydə alınıb. Fatma Yıldırım seçicilərə DOST mərkəzləri barədə məlumat verərək qeyd edib ki, hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində 2 DOST mərkəzi fəaliyyət göstərir və yaxın zamanlarda Bərdə rayonunda da

Görüşlərdə Qənbər Ağayev, Könül Rzayeva, Zümrüd Əliyeva, Bəhruz Məmişov çıxış edərək 9 fevral parlament seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Fatma Vidadi qızı Yıldırıma səs verəcəklərini söyləyiblər.

Sonda Fatma Yıldırım seçiciləri maraqlandıran sualları cavablandırıb.

**N.BAYRAMLI**

## İctimai Televiziya və Radio Yayımları Şirkəti "Eurovision-2020" üçün mahnı qəbulunu elan edib




"Eurovision" mahnı müsabiqəsində Azərbaycanın iştirakı ilə bağlı milli seçim turunda mahnı qəbuluna başlanılıb.

İctimai Televiziya və Radio Yayımları Şirkətindən AZƏRTAC-a verilən məlumata görə, "Eurovision - 2020" üçün mahnı seçimində iştirak etmək istəyənlər 7 fevrala qədər öz mahnılarını eurovision2020@itv.az elektron ünvanına və ya (050) 235 85 65 "Whatsapp" nömrəsinə göndərə bilərlər.

Azərbaycan üzrə rəsmi yayım hüququna sahib İctimai Televiziya və Radio Yayımları Şirkəti bu ilin mayında Hollandiyanın Rotterdam şəhərində keçiriləcək "Eurovision 2020" mahnı müsabiqəsində ölkəmizin təmsil olunacağı mahnı seçiminə dair şərtlərini də açıqlayıb.

Şərtlərdə qeyd edilir ki, göndəriləcək mahnı demo versiyada hazır şəkildə səsləndirilmiş olaraq təqdim edilməlidir. Mahnının xronometrajı Avropa Yayımları Birliyinin (EBU) şərtlərinə əsasən maksimum 3 dəqiqə olmalıdır. Mahnı 2019-cu ilin sentyabrın 1-dən öncə ictimaiyyətdə, eləcə də rəsmi olaraq hər hansısa mediada (televiziya, radio və ya internet resursları) yayımlanmamalıdır. Mahnı seçimi turunda iştirak edəcək hər kəs özü haqqında qısa məlumat da yollamalıdır.

Qeyd edək ki, müsabiqə üçün təqdim olunan mahnıların hansı müğənninin ifasında səsləndirilməsi seçimi yalnız "Eurovision"un rəsmi yayımçısı İctimai Televiziya və Radio Yayımları Şirkətinə məxsusdur.

## Ölkəmiz İspaniyada təşkil edilən beynəlxalq turizm sərgisində təmsil olunur

Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə Azərbaycan nümayəndə heyəti "FITUR" beynəlxalq turizm sərgisində iştirak edir.

Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, İspaniyanın paytaxtı Madrid şəhərində təşkil olunan sərgi çərçivəsində Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevlə BMT-nin Ümumdünya Turizm Təşkilatının rəsmiləri, həmçinin dövlət nümayəndələri və şirkət rəhbərləri arasında görüşlər keçirilir.

Görüşlər zamanı turizm sahəsinin inkişafına dair ikitərəfli müzakirələr aparılır.

Yanvarın 26-dək davam edəcək sərgidə turizm şirkətlərinin nümayəndələri tərəfindən Azərbaycanın turizm imkanları barəsində təqdimatlar ediləcək, B2B (Biznesdən-biznesə) formatlı görüşlər təşkil olunacaq.

Qeyd edək ki, 2019-cu ildə "FITUR" sərgisində 165 ölkədən 10 mindən çox şirkət iştirak edib və sərgi 142 mindən çox ziyarətçi qəbul edib. Bu il təşkil olunan sərgi sayca 40-cıdır.

## İTMİŞDİR

Hüseynov Həmdiyyə Hüseyn oğluna Yevlax rayonu Xaldan kəndində yerləşən torpaq sahəsinə (1,79 hektar kənd təsərrüfatı məhsullarının istehsalı üçün torpaq sahəsi) verilmiş dövlət aktı (JN - 346, kod 90111018) itdiyi üçün etibarsız sayılır.

Abdullayeva Sehrə Laçın qızına məxsus Yevlax rayonu Varvara kəndində yerləşən fərdi yaşayış evinin həyətyanı sahəsinə (0,28 hektar) verilmiş şəhadətnamə (JN-028F, kod 90104018) itdiyi üçün etibarsız sayılır.

Hüseynov Şamo Vahid oğluna məxsus Bakı şəhəri, Nəsimi rayonu, Səməd Vurğun küçəsi, ev 116, mənzil 22 ünvanına verilmiş dövlət reyestrindən çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: **67100**
Lisenziya: **N-B-317**
**Tiraj:** 4820

"Kapital Bank"ın Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Zahid İLHAMOĞLU